AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNDƏ ƏLAVƏ TƏHSİLİN MƏZMUNU, TƏŞKİLİ VƏ ƏLAVƏ TƏHSİLİN HƏR HANSI İSTİQAMƏTİ ÜZRƏ TƏHSİL ALMIŞ ŞƏXSLƏRƏ MÜVAFİQ SƏNƏDİN VERİLMƏSİ QAYDALARI

1. ÜMUMI MÜDDƏALAR

1.1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanmışdır və ali orta ixtisas və ilk peşə-ixtisas təhsili pillələrinin hər hansı birini bitirmək haqqında dövlət sənədi olan hər bir vətəndaşın əlavə təhsilinin istiqamətini, məzmununu, formasını, təşkilini və onlara müvafiq sənədin verilməsi qaydalarını müəyyən edir.

1.2. Azərbaycan Turizm və Menecment Universitetində (ATMU-da) kadr hazırlığı həyata keçirilən bütün ixtisaslar üzrə əlavə bakalvr təhsili hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafının, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsinin, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasının, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifələrini daşıyır.

1.3. ATMU-da əlavə təhsil təkrar ali təhsil istiqamətini əhatə edir.

2. TƏKRAR ALİ TƏHSİLİN MƏZMUNU VƏ FORMALARI

2.1. Təkrar ali təhsil və orta ixtisas təhsili ilkin baza peşə-ixtisas təhsili proqramı ilə yenidən əldə ediləcək ixtisasın baza təhsil proqramı arasındakı fərq bir tədris ilinə hesablanmış saatdan çox olduqda, mütəxəssislərə verilən əlavə təhsil növüdür. Proqramlar arasındakı fərq təkrar ali təhsil və orta ixtisas təhsili verən ATMU tərəfindən müəyyən edilir.

2.2. Mütəxəssis hazırlamaq işində çevikliyi və ayrı-ayrı şəxslərin əlavə ali təhsil almaq arzusunu təmin etmək məqsədi ilə təkrar ali təhsil bu təhsili almaq istəyən şəxslərlə müvafiq bağlanmış müqavilələr əsasında həyata keçirilir.

2.3. Ali təhsili olanlar təkrar ali təhsil ala bilərlər.

2.4. ATMU-da təkrar ali təhsil ATMU-da kadr hazırlanan ixtisaslar üzrə aparıla bilər.

2.5. Təkrar ali təhsilinin məzmunu ATMU-nun Elmi Şurası tərəfindən təsdiq edilmiş tədris planları və proqramları əsasında müəyyənləşdirilir.

2.6. Təkrar ali təhsil müvafiq ixtisas üzrə bakalavr pilləsi üçün mövcud olan baza təhsil proqramlarındakı ümumi və ixtisas fənləri bölümlərini əhatə etməklə, tələbənin əvvəlcə aldığı baza təhsili proqramı ilə yeni ixtisasın baza təhsili proqramı arasındakı fərq nəzərə alınmaqla, xüsusi hazırlanmış təhsil proqramları əsasında aparılır.

2.7. Təkrar ali təhsil qiyabi formada həyata keçirilə bilər.

3. TƏKRAR ALİ TƏHSİLİNİN TƏŞKİLİ

3.1. Təkrar ali təhsil üzrə qəbul qaydaları və müvafiq ixtisaslar üzrə qəbul olunacaq tələbələrin sayı mövcud maddi-texniki baza və elmi-pedaqoji potensial nəzərə alınmaqla, ATMU tərəfindən müəyyənləşdirilir.

3.2. Qruplarda tələbələrin sayı ATMU tərəfindən müəyyən edilir.

3.3. Əvvəl aldığı ixtisasın baza proqramında öyrənilmiş fənlərin məzmunu yeni almaq istədiyi əlavə ixtisasın təhsil proqramına daxil olan hər hansı fənnin məzmununa uyğun olduqda, tələbə həmin fənlər üzrə məşğələlərdən və attestasiyadan azad olunur.

4. TƏKRAR ALİ TƏHSİL HAQQINDA SƏNƏDİN DOLDURULMASI, VERİLMƏSİ VƏ UÇOTU

4.1. Təkrar ali təhsili üzrə proqram və tədris planı əsasında ali təhsilini müvəffəqiyyətlə başa vuranlara bakalavr dərəcəsi haqqında diplom verilir.

4.2. Diplomların doldurulması, verilməsi və uçotu tabeliyində dövlət təhsil müəssisələri olan mərkəzi icra hakimiyyəti orqanı, bələdiyyə və ya əlavə təhsil müəssisəsi tərəfindən təsdiq edilmiş təlimata uyğun həyata keçirilir.

5. *ƏLAVƏ TƏHSİL ÜZRƏ İXTİSASLAR*

ATMU-da aşağıdakı ixtisaslar üzrə əlavə təhsil üçün qəbul həyata keçirilir:

Sıra	İxtisasın şifri	İxtisasın adı
1.	050810	Turizm işinin təşkili
2.	050809	Turizm bələdçiliyi

3.	050408	Menecment
4.	050407	Marketinq
5.	050406	Maliyyə
6.	050409	Mühasibat
7.	050404	Dövlət və bələdiyyə idarəetməsi
8.	050635	Qida mühəndisliyi
9.	050806	Nəqliyyatda servis (nəqliyyat növləri üzrə)
10.	050807	Sosial iş
11.	050310	Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması
12.	050201	Beynəlxalq münasibətlər

6. QƏBUL PROSEDURLARI

Müraciət üçün aşağıdakı sənədlərin təqdim olunması tələb olunur

- Şəxsiyyət vəsiqəsinin surəti
- Diplomun surəti (notarial qaydada təsdiq edilmiş)
- Əmək kitabçasının surəti
- İş yerindən arayış
- Tibbi arayış
- 3x4 ölçüdə 4 ədəd fotoşəkil
- Təhsil müəssisəsi rəhbərinin adına ərizə

Əlavə ixtisas təhsili almaq üçün əvvəlki ali təhsili və ya hazırda işlədiyi vəzifəsi seçdiyi ixtisasa uyğun gələn şəxslər ATMU-nun müəyyənləşdirdiyi qaydaya əsasən müsabiqədə iştirak edə bilər.

Əlavə ali təhsil almaq üçün ATMU-ya sənədlərini təqdim etmiş şəxslərlə ATMU-da yaradılan Komissiya müsahibə aparır. Müsahibədən uğurla keçənlər seçdikləri əlavə təhsil ixtisası üzrə əlavə bakalavr təhsili alan tələbələr sırasına qəbul edilirlər. Əlavə bakalavr təhsili almaq şansı əldə etmiş və tələbələr sırasına qəbul edilmiş şəxslər əvvəlki ali təhsil ixtisaslarının uyğunluğundan asılı olaraq müvafiq təhsilə qəbul olunur və onlar üçün təhsil müddəti müəyyənləşdirilir.

Təhsil Azərbaycan və rus dilindədir.

Xaricdə təhsil almış şəxslər ikinci ali təhsil almaq üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyində müvafiq prosedur (nostrifikasiya) keçməklə şəhadətnamə aldıqdan sonra sənədlərini təqdim edə bilərlər.

Təhsil ödənişlidir. Təhsil haqqı ixtisaslara uyğun olaraq müəyyənləşdirilir.